**«VISA» Azərbaycanda yeni layihələr həyata keçirəcək**

Azərbaycan hökuməti tərəfindən ölkə iqtisadiyyatında nağdsız dövriyyənin həcminin yüksəldilməsi və ödəniş kartları bazarının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən islahatlara dəstək verən «VISA» şirkəti Mərkəzi Bank və Vergilər Nazirliyi ilə birgə yeni layihələrə başlamaq niyyətindədir. «VISA» şirkətinin MDB və Cənub Şərqi Avropa ölkələri üzrə baş direktoru Jan-Mark Tonti «Vergilər» qəzetinə açıqlamasında bildirib ki, kommersiya banklarının da cəlb olunduğu bu layihələr çərçivəsində nağdsız ödənişlərin həcminin genişləndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçiriləcək. 2012-2013-cü illər ərzində nəzərdə tutulan həmin tədbirlər çərçivəsində plastik kartlardan istifadəni stimullaşdırmaq üçün ticarət məntəqələrində, turizm və xidmət sektorunda güzəştli kampaniyaların, həvəsləndirici oyunların keçirilməsi planlaşdırılır.

«VISA» nın regional direktorunun sözlərinə görə, Azərbaycanda nağdsız ödənişlər bazarını genişləndirmək üçün münbit şərait - lazımi kart infrastrukturu və elektron ödənişlər arxitekturası mövcuddur. Son illərdə hökumətin həyata keçirdiyi məqsədyönlü siyasət elektron ödəniş sistemlərinin möhkəmlənməsinə, nağdsız hesablaşmaların həcminin artırılmasına səbəb olub. Son bir ildə POS-terminalların quraşdırılması ilə bağlı atılan addımların böyük əhəmiyyətini qeyd edən cənab Tonti terminal şəbəkəsindən istifadə dinamikasının hələ də yetərli səviyyədə olmadığını da diqqətə çatdırıb. Bunun əsas səbəblərindən biri kimi isə insanlarda ödəniş sistemləri ilə bağlı məlumatların az olmasıdır: «Biz MDB məkanında kart bazarı ilə bağlı vəziyyəti təhlil edərək belə qənaətə gəlmişik ki, bir sıra ölkələrdə insanların nağdsız hesablaşmalar, ödəniş kartları barədə bilikləri hələ istənilən səviyyəyə çatmayıb. İctimaiyyətin ödəniş alətlərinin üstünlükləri və imkanları sahəsində maarifləndirilmə səviyyəsinin aşağı olması ölkədə yaradılmış infrastruktur imkanlarından daha səmərəli və effektiv istifadə edilməsini, banklar tərəfindən elektron ödəniş xidmətlərinin inkişaf etdirilməsini və bu sahədə innovativ texnologiyaların tətbiq edilməsini əngəlləyən səbəblərdən biridir».

Jan-Mark Tonti Vergilər Nazirliyi və Mərkəzi Bank tərəfindən ictimaiyyətin müasir elektron ödəniş alətlərinin üstünlükləri və imkanları sahəsində maarifləndirilməsi və alqı-satqı əməliyyatları üzrə hesablaşmalarda kartlardan istifadənin miqyasının genişləndirilməsi ilə bağlı həyata keçirdiyi təbliğat kampaniyasının mühüm fayda verdiyini də bildirib. Cəmiyyətdə yüksək ödəniş mədəniyyətinin formalaşdırılması, əhaliyə elektron ödəniş xidmətlərindən və nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin aşılanması, ödəniş kartlarının üstünlükləri və imkanları, habelə kredit təşkilatlarının, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrinin və kart sahiblərinin hüquq və öhdəlikləri haqqında ictimaiyyətə daha ətraflı məlumatın təqdim edilməsi, internet portallarında zəngin informasiya resurslarının yerləşdirilməsi, digər təbliğat xarakterli təşəbbüslər öz təsirini göstərməkdədir. Kart sahiblərinin ödəniş kartının üstünlükləri, onun vasitəsi ilə həyata keçirilən əməliyyatlar, ödəniş kartından istifadə zamanı qarşılaşa biləcəkləri fırıldaqçılıq halları və bu hallara qarşı mübarizə tədbirləri və s. haqqında məlumatlandırılması mühüm əhəmiyyət kəsb edir.

Şirkətin Azərbaycanda elektron ticarətə böyük marağının olduğunu deyən Jan-Mark Tonti respublikamızda müasir texnologiyalardan istifadənin genişlənməsinin bir çox xidmətlər kimi onlayn ticarətə də tələbi artırdığını və bu sahədə son illər müsbət dinamikanın müşahidə olunduğunu bildirib: «Hazırda əmtəə və xidmətlər sektorunda nağdsız ödənişlər dövriyyəsi aşağıdır. Bu sahədə aktivliyi artırmaq üçün müxtəlfi vasitələr var. «VISA» Ukraynada ticarət strukturlarını, bank sektorunu və əhalini əhatə etməklə bir neçə layihə həyata keçirib. Layihə çərçivəsində pulun idarə olunması və nağdsız ödənişlərə keçid, kartlardan istifadə ilə bağlı bilik səviyyəsinin artırılması təşviq edilib. Digər layihə isə birbaşa supermarketlərlə birgə həyata keçirilib. Nəticədə bir il ərzində kartların sayında ümumi artım qeydə alınıb. Ümumiyyətlə, bu gün dünyada e- ticarətin yüksək inkişafı elə bir səviyyəyə çatıb ki, insanların daha çox debet kartlarından istifadəsi özünü göstərməkdədir. Yəni son 2 ildə debet kartları üzrə ödənişlərin məbləği kredit üzrə ödəmələrin məbləğini ötüb. Debet kartları üzrə ödənişlər hazırda ticarət və iaşə sektorunda böyük üstünlük təşkil edir. Bu gün MDB ölkələrində «VISA»nın debet kartları vasitəsilə kommunal, yanacaq, digər xidmət ödənişlərindən başqa, restoranlar, quru təmizləmə, kinoteatr, mağazalar, turizm obyektlərində istifadə olunur. Bütün bu məqsədlərə nail olmaq üçün əhalinin maliyyə savadlılığını

artırmaq lazımdır. Bizim bununla bağlı proqramımız da var. İnternet kartları və mobil telefonlar vasitəsilə market və ictimai mağazalarda ödənişlərin aparılmasını təmin etmək nə qədər vacibdirsə, bu yeniliklər barədə insanları məlumatlandırmaq, istifadə qaydalarını öyrətmək də o qədər zəruridir. Azərbaycanda bu yöndə layihələri həyata keçirməyi nəzərdə tuturuq».

«VISA»nın MDB və Cənub Şərqi Avropa ölkələri üzrə baş direktoru respublikamızda

e-ödənişlərlə bağlı bir şirkət yaratmaq niyyətində olduğunu da xatırladıb. E-ticarətin həyata keçirilməsində aktiv rol oynayacaq bu qurum daha çevik və yerli bazarın ehtiyaclarına cavab verən vasitələrdən istifadə etməyi planlaşdırır. Qurumun fəaliyyət istiqaməti ölkəmizdə ticarət şirkətlərinin aktivləşdirilməsi və kart sahiblərini terminal və yaxud internet üzərindən malların və xidmətlərin ödənilməsinə təşviq etmək, emitentlərdə fəal işləmək və vahid bir sistem yaratmaqdan ibarətdir.

Jan-Mark Tonti qeyd edib ki, «VISA»nın Vergilər Nazirliyi və Mərkəzi Bankla birgə layihələr həyata keçirməsi ölkədə innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması, əhalinin, kiçik və orta biznesin elektron ödəniş sistemlərindən istifadə aktivliyinin daha da artırılmasına səbəb olacaq.

Elbrus CƏFƏRLİ